«Təsdiq edilmişdir»

“Bakı Fond Birjası” QSC-nin
Müşahidə Şurası
Protokol № 02
“04” iyun 2020-ci il

Müşahidə Şurasının sədri

___________________Y.Məmmədov

# “Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyətinin Mübahisələrin həll edilməsi Komissiyasının

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə, Azərbaycan Respublikasının “Qiymətli kağızlar bazarı haqqında” Qanununa, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qəbul edilmiş normativ xarakterli aktlara, Bakı Fond Birjası QSC-nin (bundan sonra Birja adlandırılacaq) nizamnaməsinə və “Bakı Fond Birjası” QSC-nin Mübahisələrin həlli üzrə Qaydalarına (bundan sonra “Qaydalar” adlandırılacaq) əsasən hazırlanmışdır.

1.2. Bu Əsasnamə, Mübahisələrin həll edilməsi Komissiyasının (bundan sonra Komissiya adlandırılacaq) tərkibini, səlahiyyətlərini, hüquq və vəzifələrini, habelə bu əsasnamə ilə müəyyən olunmuş digər funksiyalarnı müəyyən edir.

1.3. Komissiya, Birjada daimi fəaliyyət göstərən kollegial orqandır.

1.4. Komissiya, Birjanın nəzarət və ya icra orqanları adından çıxış edə və ya qərarlar qəbul edə bilməz.

## 2. Əsas anlayışlar

2.1. Bu Əsasnamədə istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. emitent – investisiya qiymətli kağızlarının emissiyasını Azərbaycan Respublikasının Qanununa uyğun qaydada həyata keçirən şəxs, dövlət (müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı vasitəsilə) və ya bələdiyyə;

2.1.2. nəzarət orqanı – Azərbaycan Respublikasının Mərkəzi Bankı;

2.1.3. birja üzvləri – “Bakı Fond Birjası QSC-nin Üzvlük Qaydaları”na uyğun olaraq Birjada ticarət etmək hüququna malik olan Birja üzvləri;

2.1.4. məlumat təminatçıları – Birja ilə bağlanılan müqavilənin şərtlərinə və həmçinin “Bakı Fond Birjası QSC-nin Məlumatın Açıqlanması Qaydaları”na uyğun olaraq Birjadan məlumatı kommersiya məqsədləri ilə satın alan qurumlar;

2.1.5. üzrlü səbəb – xəstəliyin olması, ezamiyyətdə olma, ölkə xaricində olma və ya yaxın qohumun vəfat etməsi.

## 3. Komissiyanın səlahiyyətləri və prinsipləri

3.1. Komissiya aşağıdakı səlahiyyətlərə malikdir:

3.1.1. Birjada üzvlük, listinq, ticarət və məlumatın ötürülməsi əməliyyatları zamanı qiymətli kağızları listinqdə saxlanılan edilmiş emitentlər, Birja üzvləri, məlumat təminatçıları (bundan sonra - Tərəflər) arasında yaranan mübahisələrə baxılması;

3.1.2. Birjanın Komitə və Komissiyalarının, habelə İdarə Heyətinin qərarlarından verilmiş şikayətlərə baxılması;
3.1.3. Birja tərəfindən qəbul edilmiş qaydalara dair şərhlərin, tövsiyyə və təlimatların verilməsi.

3.2. Komissiya Birjanın digər daxili qaydaları ilə nəzərdə tutulan səlahiyyətlərə malikdir.

3.3. Komissiya mübahisəli məsələlərə aşağıdakı prinsiplər əsasında baxır:
3.3.1. mübahisə tərəflərinin müstəqil və bərabər hüquqa malik olması;
3.3.2. mübahisənin həlli zamanı ədalətli və qərəzsiz olması;
3.3.3. məxfiliyə riayət edilməsi.

## 4. Komissiyanın hüquqları və vəzifələri

4.1. Komissiyanın hüquqları:
4.1.1. öz səlahiyyətlərinə aid olmayan müraciət və sorğulara baxmaqdan imtina etmək;
4.1.2. tərəflər arasında mübahisə yarandığı tarixdən 30 (otuz) təqvim günündən çox vaxt keçmişdirsə həmin mübahisəyə baxılmasından imtina etmək;
4.1.3. tərəflərin mübahisələrə baxılması üçün sənədlərdə çatışmazlıqlar olduqda, tərəflərdən çatışmazlıqları aradan qaldırılmasını tələb etmək;
4.1.4. sənədlərdə çatışmazlıqlar Komissiya tərəfindən müəyyən olunmuş müddət ərzində aradan qaldırılmadıqda, müraciətə baxılmasından imtina etmək;
4.1.5. məlumatların dəqiqləşdirilməsi və ya müvafiq məsələlərin araşdırılması ilə bağlı tərəflərə, Birjanın struktur bölmələrinə, mərkəzi depozitara və klirinq şirkətinə yazılı və ya şifahi sorğular vermək;
4.1.6. mübahisə tərəflərini barışığa dəvət etmək;
4.1.7. qanunvericilik və Qaydalar ilə müəyyən olunmuş digər hüquqlardan istifadə etmək.

4.2. Komissiyanın vəzifələri:
4.2.1. qanunvericilik və Qaydalar ilə müəyyən olunmuş tələblərə riayət etmək;
4.2.2. mübahisəli məsələyə mahiyyəti üzrə baxmaq;
4.2.3. mübahisəli məsələyə baxarkən Azərbaycan Respublikasının qanunvericiliyini, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişləri (Konvensiyaları) və Birja qaydalarını rəhbər tutmaq;
4.2.4. Birjanın nəzarət və icra orqanlarının sorğularını cavablandırmaq;
4.2.5. Birjanın maraqlarına zidd hərəkətlər və qərarlar qəbul etməmək;
4.2.6. qanunvericilik və Birjanın daxili qaydalarına riayət etmək;
4.2.7. onlara məlum olmuş məxfi məlumatları açıqlamamaq və hər-hansı bir şəxsi məqsədlər üçün istifadə etməmək;
4.2.8. qanunvericilik və Qaydalar ilə müəyyən olunmuş digər vəzifələri icra etmək.

## 5. Komissiyanın tərkibi və formalaşdırılması qaydası

5.1. Komissiyanın üzvləri Birjanın Müşahidə Şurası tərəfindən seçilir və azad edilir.

5.2. Komissiyanın üzvləri təkrar seçilmək hüququna malik olmaqla, Müşahidə Şurası tərəfindən 3 (üç) il müddətinə seçilirlər.

5.3. Müşahidə Şurasının müvafiq qərarı istisna olmaqla, digər hallarda Komissiyaya üzvlük könüllü və ödənişsiz əsaslarla həyata keçirilir.

5.4. Komissiyanın sayı aşağıdakı tərkibdə olmaqla 5 (beş) nəfərdən az olmamalıdır:
5.4.1. Birjanı təmsil edən azı 3 (üç) nəfər;
5.4.2. hüquqi və ya iqtisadi biliklərə malik olan azı 1 (bir) müstəqil üzv.

5.5. Komissiyanın tərkibinə Kapital Bazarı İştirakçıları Assosiasiyasını təmsil edən şəxs və nəzarət orqanını təmsil edən səlahiyyətli şəxslər seçilə bilər.

5.6. Komissiyanın üzvlərindən ən azı biri hüquqşünas ixtisası üzrə ali dərəcəyə və ixtisası üzrə ən azı 2 (iki) il iş stajına malik olmalıdır.

5.7. Komissiyanın üzvlərinin səlahiyyətlərinə Birjanın Müşahidə Şurası tərəfindən aşağıdakı hallarda vaxtından əvvəl xitam verə bilər:
5.7.1. istefa verməsi ilə bağlı Komissiya üzvü yazılı qaydada müraciət etdikdə;
5.7.2. vəfat etdikdə;
5.7.3. üzrlü səbəbdən iştirak edə bilməməsi istisna olmaqla, Komissiyanın iclaslarında ardıcıl 3 (üç) dəfə iştirak etmədikdə;
5.7.4. Komissiya üzvünün namizədliyini irəli sürmüş təşkilat yazılı müraciət etdikdə;
5.7.5. fəaliyyətində nöqsanlar aşkar edildikdə.

5.8. Komissiyanın Birjanı təmsil edən üzvlərindən biri Birjanın Müşahidə Şurası tərəfindən Komissiyanın sədri təyin edilir.

5.9. Komissiyanın sədri aşağıdakı səlahiyyətlərə malikdir:
5.9.1. Komissiyanın fəaliyyətinə rəhbərlik edir;
5.9.2. iclasın vaxtını, yerini və gündəliyini təsdiq edir;
5.9.3. iclasa dəvət olunacaq şəxslərin siyahısını müəyyən edir;
5.9.4. iclaslarda sədrlik edir;
5.9.5. iclasların protokollaşdırılmasını təşkil edir;
5.9.6. Komissiya üzvləri arasında səlahiyyət bölgüsünü həyata keçirir;
5.9.7. zərurət olduqda təyin edilmiş iclasın keçirilməsini ləğv edir və ya onu başqa vaxta keçirir.
5.9.8. Komissiyanı Birjanın nəzarət və icra orqanı qarşısında təmsil edir.

5.10. Komissiyanın sədri, Qaydalar ilə müəyyən olunmuş digər səlahiyyətlərə malikdir.

## 6. Komissiyanın iclaslarının keçirilməsi, mübahisələrin həll edilməsi və qərarların qəbul edilməsi qaydası

6.1. Komissiyanın iclasları mübahisə tərəflərindən birinin müraciəti əsasında Komissiyanın sədri tərəfindən çağırılır.

6.2. İlk növbədə hazırlıq iclası keçirilir. Hazırlıq iclasın keçirilməsi ilə bağlı bildiriş, iclasın təyin edildiyi gündən 3 (üç) iş günündən gec olmayaraq Komissiya sədri tərəfindən Komissiya üzvlərinə elektron qaydada göndərilir.

6.3. Bildirişdə iclasın yeri, vaxtı və digər zəruri məlumatlar əksini tapır.

6.4. Komissiyanın hazırlıq iclasında müraciətin Qaydalara uyğunluğu və sənədlərin tamlığı yoxlanılır.

6.5. Təqdim edilmiş müraciət və sənədlər Qaydalara uyğun olduqda, Komissiya tərəfindən işə baxılması üçün iclasının tarixi müəyyən edilir. İşə baxılması üçün iclas hazırlıq iclasının keçirilməsindən sonra 15 (on beş) iş günü ərzində keçirilir.

6.6. Komissiya tərəfindən Tərəflər iclasa dəvət olunurlar. İclasın keçirilməsinə azı 3 (üç) iş günü qalmış iclasın keçirilmə yeri və vaxtı barədə Tərəflərə bildiriş göndərilir.

6.7. Bütün iclaslarda, Komissiyanın üzvlərinin yarısından çoxu iştirak etdikdə iclas baş tutmuş hesab edilir.

6.8. Komissiyanın bütün iclaslarında sədrlik onun sədri tərəfindən həyata keçirilir. Hər hansı bir iclasda Komissiya sədri iştirak edə bilmirsə, həmin iclasın sədri Komissiya üzvləri tərəfindən sadə səs çoxluğu ilə seçilir.

6.9. İclasın katibi, iclas zamanı Komissiya üzvləri tərəfindən seçilir.

6.10. Komissiyanın iclas və dinləmələri qapalı şəraitdə keçirilir.

6.11. Komissiyanın qərarı Komissiya üzvləri arasında sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, sədrin səsi həllediciddir.

6.12. Komissiya Qaydaların müvafiq maddəsinin tələblərini nəzərə almaqla qərar qəbul edir.

6.13. Komissiyanın bütün iclasları protokolaşdırılır, iclasın sədri və katibi tərəfindən imzalanır.

6.14. Komissiya tərəfindən iclasın gündəliyinə hər hansı Komissiya üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli və bu məsələnin müzakirəsində iştirak etməməlidir. Bu zaman həmin üzv məsələyə dair səsvermədə iştirak etmir və onun iştirakı yetərsay müəyyən edilərkən nəzərə alınmır.

6.15. Zərurət olarsa, Komissiyanın iclaslarına Birjanın əməkdaşları, nəzarət orqanının nümayəndəsi və digər əlaqəli şəxslər dəvət edilə bilərlər.

6.16. Tərəflər arasında mübahisələrin həll edilməsi üzrə prosedur Qaydalar ilə müəyyən olunur.

6.17. Komissiyanın sədri, mübahisələrin həll edilməsinə dair iclasın keçirilməsi gününə 3 (üç) iş günü qalanadək, iclasın vaxtını dəyişdirə bilər. Belə olan halda, Komissiyanın sədri iclasın vaxtının dəyişdirilməsi barədə, habelə iclasın yeni tarixi barədə məlumatı Komissiya üzvlərinə və mübahisənin tərəflərinə göndərilməsini təmin edir. İclas, bildiriş göndərildiyi gündən etibarən 3 (üç) iş günündən tez olmamaq şərti ilə keçirilir.

6.18. İclasın protokolu ən geci 5 (beş) gün ərzində iclasın katibi tərəfindən tərtib edilir.

6.19. Protokolda aşağıdakı məlumatlar əksini tapır:
6.19.1. iclasın vaxtı və keçirildiyi yer;
6.19.2. iclasın iştirakçılarının siyahısı;
6.19.3. mübahisənin predmeti;
6.19.4. çıxışların xülasəsi;
6.19.5. səsverməyə təklif olunan məsələlər;
6.19.6. qəbul olunmuş qərarlar.

6.20. İclasın materialları protokola əlavə edilir və Birjanın müvafiq struktur bölməsində saxlanılır.

6.21. Barəsində qərar qəbul olunmuş məsələyə təkrar baxıla bilməz.

6.22. Birjanın komissiya və komitələrinin və İdarə Heyətinin qərarlarından şikayətlə bağlı Komissiyanın qərarı qəbul edildiyi gündən qüvvəyə minir və icrası məcburidir. Komissiyanın digər qərarları da qəbul edildiyi gündən güvvəyə minir, lakin onlar tövsiyə xarakteri daşıyır.

## 7. Mübahisələrin barışıq yolu ilə həll edilməsi

7.1. Mübahisəyə baxılmasının istənilən mərhələsində, Tərəflər barışığa gələ bilərlər.

7.2. Tərəflər barışığa gəldikdə, bu barədə yazılı qaydada Komissiyaya müraciət edirlər.

7.3. Tərəflərin barışığa gəlməsi qanunvericiliyə, Birjanın qaydalarına və 3-cü şəxslərin hüquqlarına zidd deyilsə, tərəflərin barışığa dair qərarı protokollaşdırılır və Komissiya tərəfindən müvafiq qaydada təsdiq edilir.

## 8. Mübahisələrə baxılmasının dayandırılması

8.1. Komissiya mübahisələrə baxılmasını aşağıdakı hallarda dayandırır:
8.1.1. İddiaçı tərəf iddiadan imtina edərsə, əgər bu halda cavabdeh tərəf buna etiraz etmirsə;
8.1.2. Tərəflərin barışığa gəlməsi Komissiya tərəfindən təsdiq edilərsə;
8.1.3. mübahisənin birbaşa tərəfi olan Birja üzvü, Birjanın üzvlüyündən çıxarılarsa;
8.1.4. mübahisə edilən məsələyə məhkəmədə baxılırsa və ya buna dair məhkəmənin qərarı varsa.

## 9. Yekun müddəalar

9.1. Bu Əsasnaməyə dəyişikliklər və əlavələr barədə qərar Birjanın Müşahidə Şurası tərəfindən qəbul edilir.

9.2. Bu Əsasnamə ilə tənzimlənməyən məsələlər, qanunvericilik və Qaydalar ilə tənzimlənir.

9.3. Bu Əsasnamə təsdiq edildiyi tarixdən etibarən qüvvəyə minir.